**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

«Təsdiq edirəm»Tədris
məsələləri üzrə prorektor v.i.e:
____________ dos. Zaur Məmmədov
"13" 02. 2026-cı il

# FƏNN SILLABUSU
(işçi tədris proqramı)

**İxtisasın şifri və adı:** 6001018 -Tarix müəllimliyi A,B
**Fakültə:** Tarix-coğrafiya və incəsənət
**Kafedra:** Tarix və onun tədrisi metodikası
**I. Fənn haqqında məlumat**
**Fənnin adı:** Osmanlı tarixi (ARETN 02.07.2025-ci il tarixli əmri (3/29) ilə təsdiq edilmişdir).
**Kodu:** İPF-B12
**Tədris ili:** I (2025-2026)
**Semestr:** II (yaz)
**Tədris yükü:** Cəmi: 180 saat. Auditoriya saatı: 60 saat (30 saat mühazirə, 30 saat seminar).
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 6 kredit
**II. Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı: Mühazirə müəllimi:** dos.Bayramov Müşfiq Cabir oğlu, **seminar müəllimi:** b/m.Sevdimova Məlahət Miriş qızı
**Kafedranın ünvanı:** Lənkəran ş., Ə.Məmmədov küç., 21, 2 saylı korpus
**Məsləhət günləri və saatı:** I gün saat $10^{00}$-$11^{00}$
**E-mail ünvanı:** mushfiq76@mail.ru; malahat-80@mail.ru
**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

1. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, 2000
2. İnancık H. Osmanli imparatorluğu klasik çağ (1300-1600) İstanbul-2003
3. Yüsifov A., Əhmədov S. Ağqoyunlu-Osmanlı müharibəsi (1472-1473-cü illər) Bakı-2006
4. Kerolayn F. Osmanlı İmperiasının tarixi. Abdülrəhim Mikragvinin tərcüməsi, Bakı, 2009
5. Oral Ö, Kolçak Ö. Kuruluş ve yükseliş devri Osmanli tarihi. 2010
6. Tozduman A. Osmanlının təşkilat ve kütür tarihi. İstanbul-2010
7. Jorc N.Kanuni Sultan Süleyman - Yenilmez Türk, İstanbul-2012
8. Maksudoğlu M. Osmanlı tarixi. İstanbul 2020
9. İnalcık H.Osmanli imparatorluğu tarihi. Timaş yayımları, İstanbul-2021
10. Ağayev M., Əliyev S. Osmanlı tarixi. Dərs vəsaiti, Bakı- 2022
11. Üreng A. F. Osmanlı Tarihi (1789-1908). İstanbul, 2022.
12. Oktay Ö, Mehmet Ö. Söğütten İstanbula - Osmanlı devletinin kuruluşu üzerine tartışmalar. 2024
13. Özcan A. Osmanli İmparatorluğunun siyasal ve kurumsal tarihi (1300-1792). İstanbul , 2025
14. Ortaylı İ. Fatih Sultan Mehmet. İstanbul, 2025

**IV Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa fənnin tədrisinə zərurət yoxdur.
**V Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni vaxta başqa fənnin tədrisinə ehtiyac yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:**

Türklər böyük İmperatorluqlar quraraq Uzaq Şərq, Yaxın Şərq, Asiya, Avropa və Afrika qitələri arasında din və mədəniyyətləri çulğalaşdıraraq dünya mədəniyyəti tarixində silinməz izlər buraxmış, dünya mədəniyyətinin inkişafına əvəzsiz xidmətlər göstərmişlər. Türklərin dövlətçilik tarixində mühüm yer tutan dövlətlərdən biri Osmanlı dövlətidir. Ən böyük müsəlman türk dövlətlərindən biri olan Osmanlı dövləti 600 illik bir dövrü əhatə edir. Avropa, Asiya və Afrikada sahib olmuş bu dövlət 1299-cü ildən başlayaraq 1922-ci il qədər hökm sürmüşdür.

Kursun tədrisində əsas məqsəd Türk xalqları tarixində özünəməxsüs rolu olan Osmanlı dövləti haqqında ümumi biliklər verməkir. Tələbələri Osmanlı dövlətinin yüksəlmə səbəbləri, Osman

CamScanner ilə skan edilib

dövlətinin Balkanlarda işğalı, Osmanlı–Teymuri, Osmanl-Ağqoyunlu, Osmanlı-Səfəvi münasibətləri, Osmanlı dövlətində iqtisadi vəziyyət,ictimai münasibətlər, istismar olunan xalqların azadlıq hərəkatı, XVII-XVIII əsrlər Osmanlı-Avstriya və Osmanl-Rusiya müharibələri, Gənc türklər inqilabı və Balkan müharibələri, Osmanl imperiyasının suqutu və s. haqqında ümumi biliklər verməkdir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yeni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17 dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| Bal aralığı (göstərilən ballar daxil olmaqla) | Hərflə işarəsi | Sözlə yazılışı |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı:** Mühazirə 30 saat, seminar 30 saat. **Cəmi 60 saat.**

| № | Tədris olunan mövzuların məzmunu | Saat | | Tarix |
|---|---|---|---|---|
| | | Mühazirə | Seminar | |

CamScanner ilə skan edilib

| | | | | |
|---|---|---|---|---|
| 1. | **Mövzu: Osmanlı dövlətinin mənbəşünaslığı və tarixşünaslığı**<br>**Plan:**<br>1. Osmanlı dövlətinin mənbəşünaslığı<br>2. Osmanlı dövlətinin tarixşünaslığı<br>**Mənbə:** [9; 10] | 2 | 2 | |
| 2. | **Mövzu: Osmanlı dövlətinin yaranması**<br>**Plan:**<br>1. Anadolu Səlcuqlu dövlətinin tənəzzülü.<br>2. Osman bəyliyinin yüksəlmə səbəblər. Osmanlı dövlətinin yaranması.<br>3. Osmanlı dövlətinin güclənməsi<br>4. XIV əsrdə Osmanlı türklərinin Balkanlardakı işğalları<br>**Mənbə:** [2; 5; 9; 10] | 2 | 2 | |
| 3 | **Mövzu: Osmanlı dövlətinin imperiyaya çevrilməsi**<br>**Plan:**<br>1. Osmanlı dövləti sultan I Bəyazidin (1389-1402) dövründə.<br>2. Teymurun yürüşü və türklərin Ankarada məğlub olması (1402).<br>3. Osmanlı dövləti fetret dövründə (1402-1413).<br>4. Osmanlı dövləti I Mehmet (1413-1421), II Murad (1421-1451) dövründə.<br>**Mənbə:** [2; 5; 9; 10; 12;] | 2 | 2 | |
| 4. | **Mövzu: Osmanlı imperiyasının genişlənməsi. Dövlətin idarə olunması, torpaq mülkiyyət formaları və vergi sistemi**<br>**Plan:**<br>1. Sultan II Mehmetin (1451-1481) Konstantinopolu fəth etməsi, imperiyanın təşəkkülü. 1461-ci ildə Trabzon imperiyasının süqutu.<br>2. Osmanlı dövlətində saray təşkilatı: Dövlət və əyalət sarayları. Divani Hümayün.<br>3. Osmanlı dövlətində hərbi təşkilat. Torpaq mülkiyyət formaları. Vergi sistemi.<br>**Mənbə:** [2; 5; 6; 10; 12; 13; 14] | 2 | 2 | |
| 5. | **Mövzu: Osmanlı dövlətinin XIV-XV əsr Azərbaycan feodal dövlətləri ilə münasibətləri**<br>**Plan:**<br>1. Osmanlı - Qaraqoyunlu münasibətləri.<br>2. Osmanlı - Ağqoyunlu münasibətləri.<br>3. Osmanlı imperiyası ilə Şirvanşahlar dövlətinin münasibətləri.<br>**Mənbə:** [1; 3; 10;] | 2 | 2 | |
| 6. | **Mövzu: Misir və Suriyada Osmanlı hökmranlığının başlanması. Sultan I Səlim dövrü**<br>**Plan:**<br>1. Osmanlı dövləti Sultan II Bəyazidin (1481-1512) hakimiyyəti illərində Osmanlı Dövlətinin siyasi qüdrətinin artması.<br>2. XVI əsrin 2-ci yarısında Osmanlı-Səfəvi münasibətləri. Çaldıran döyüşü (1514).<br>3. XVI əsrdə Misir və Suriyada Osmanli işğalları<br>**Mənbə:** [2; 5; 10; 13] | 2 | 2 | |
| 7. | **Mövzu: Osmanlı imperatorluğunun yüksəliş dövrü. Sultan Süleyman Qanuni** | 2 | 2 | |

CamScanner ilə skan edilib

| | | | | |
|---|---|---|---|---|
| | **Plan:**<br>1. Sultan Süleyman Qanuni (1520-1566). Osmanlı Habsburq müharibələri, osmanlıların Mərkəzi Avropaya müdaxiləsi.<br>2. I Süleymanın şərq səfərləri. Amasiya sülh müqaviləsi.<br>3. Osmanlı dövləti II Səlimin (1566-1574) hakimiyyəti illərində. Həştərxan səfərinin boşa çıxması və türk ordusunun Lepanto altında darmadağın edilməsi.<br>**Mənbə:** [2; 7; 10; 13] | | | |
| 8. | **Mövzu: Osmanlı imperiyası XVI əsrin sonu –XVII əsrdə. İmperiyanın zəifləməyə başlaması**<br>**Plan:**<br>1. Osmanlı dövləti XVI əsrin sonunda. Sultan III Murad (1574 – 1595)<br>2. Avropa dövlətlərinin Osmanlı dövlətində kapitülyasiya hüquqları almaları. Əyri qalasının fəthi və Xaçova müharibəsi. Zitvatorok müqaviləsi.<br>3. XVI əsrin sonunda Osmanlı-Səfəvi müharibələri (1578-1590). II İstanbul (Sərab) (1612), Qəsri-Şirin (1639) sülh müqavilələri.<br>**Mənbə:** [4; 8; 10; 13] | 2 | 2 | |
| 9. | **Mövzu: XVII-XVIII əsrlər Osmanlı-Avstriya və Osmanl-Rusiya müharibələri**<br>**Plan:**<br>1. 1663-1664-cü illər Osmanlı-Avstriya muharibəsi. Vasvar sülhü.<br>2. 1683-1699-cü illər Osmanlı-Avstriya muharibəsi. Karlovitsa müqaviləsi.<br>3. 1677-1681 illər Osmanlı-Rusiya müharibəsi Baxçasaray sülhü. 1700-cü il İstanbul sülhü. 1711-ci il Prut müqaviləsi<br>4. 1768-1774-cü illər Osmanlı-Rusiya müharibəsi. Kiçik Qaynarça sülhü.<br>5. 1787-1791-ci illər Osmanlı-Rusiya müharibəsi. Sistov və Yassı müqavilələri.<br>**Mənbə:** [8; 10; 11; 13;] | 2 | 2 | |
| 10. | **Mövzu: Osmanlı XVIII əsr XIX əsrin əvvələrində. Şərq məsələsinin yaranması. III Səlimin islahatları**<br>**Plan:**<br>1. XVIII əsrin sonunda Osmanlı dövlətində ictimai-siyasi vəziyyət. Balkan xalqlarının mübarizəsi.<br>2. Osmanlı tarixində "geriləmə dövrü". Sultan III Səlimin (1789-1807) islahatları.<br>3. 1806-1812-ci illər Osmanlı-rus müharibəsi. Balkanlarda milli azadlıq hərəkatının yüksəlməsi. II Mahmudun (1808-1839) islahatları.<br>**Mənbə:** [8; 10; 11] | 2 | 2 | |
| 11. | **Mövzu: Osmanlı XIX əsrin birinci yarısında. Tənzimat hərəkatı**<br>**Plan:**<br>1. XIX əsrin I yarısında Osmanlı imperiyasında hərbi-siyasi vəziyyət.<br>2. 1821-1823-cü illər Osmanlı-İran, 1828-1829-cü illərdə Osmanlı-rus müharibəsi. Müstəqil yunan dövlətinin yaranması.<br>3. 1831-1833 və 1838-1840-cı illər Osmanlı-Misir | 2 | 2 | |

CamScanner ilə skan edilib

| | | | | |
|---|---|---|---|---|
| | münaqişələri.<br>4. Tənzimat hərəkatının I dövrü (1839-1953). Gülxana xətti-şərifi.<br>**Mənbə:** [8; 9; 10] | | | |
| 12. | **Mövzu: Osmanlı imperiyası XIX əsrin ikinci yarısında**<br>**Plan:**<br>1. Krım müharibəsi (1853-1856)<br>2. Tənzimatın ikinci dövrü (1856-1876-cı illər). Xətti humayun.<br>3. XX əsrin 70-ci illərin əvvəllərində Osmanlı imperiyasının beynəlxalq vəziyyəti. 1875-ci il böhranı. 1876-cı il konstitusiyası və onun əhəmiyyəti.<br>4. 1877-1878-ci illər Osmanlı-rus müharibəsi. San-Stefano (Yaşılköy) sülhü.<br>**Mənbə:** [8; 9; 10] | 2 | 2 | |
| 13. | **Mövzu: Gənc türklər inqilabı və Balkan müharibələri**<br>**Plan:**<br>1. II Əbdülhəmidin (1876-1909) məclisi buraxması, "zülm" rejiminin yaradılması.<br>2. 1908-1909-cü illər inqilabı. Konstitusiyalı rejimin yaradılması.<br>3. 1909-cü il əksinqilabi qiyamı. II Əbdülhəmid rejiminə son qoyulması. "İttihad və Tərəqqi" partiyasının hakimiyyətinin yaranması.<br>4. 1912-1913-cü illər Balkan müharibələri. Buxarest sülh müqaviləsi.<br>**Mənbə:** [8; 9; 10] | 2 | 2 | |
| 14. | **Mövzu: Osmanlı I Dünya müharibəsi illərində**<br>**Plan:**<br>1. I Dünya müharibəsi ərəfəsində ölkədə siyasi vəziyyət.<br>2. Osmanlı imperiyasının muharibəyə qoşulması. Sarıqamış döyüşü.<br>3. Osmanlı dövlətinin parçalamaq haqqında imperialist dövlətlərinin "Kiçik Asiya andlaşması". Brest-Litovsk müqaviləsi. Trabzon konfransı.<br>4. Tələt, Ənvər, Camal rejiminin iflası. Mudros barışığı (1918).<br>**Mənbə:** [8; 9; 10] | 2 | 2 | |
| 15. | **Mövzu: Osmanl imperiyasının suqutu**<br>**Plan:**<br>1. Mudros barışığından sonra osmanlı dövlətində siyasi vəziyyət<br>2. Milli istiqlaliyyət müharibəsinin başlanması. M.K.Atatürk<br>3. 1920-ci il parlamentinin buraxılması. Sevr müqaviləsi (1920).<br>4. Osmanlı mədəniyyəti<br>**Mənbə:** [8; 9; 10] | 2 | 2 | |
| | **Cəmi:** | **30 saat** | **30 saat** | |

**XI. Fənn üzrə tələblər:**
Osmanlı dövlətinin ərazisində baş verən dəyişiklikləri, dövlətin idarəçilik formalarını və sosial-iqtisadi münasibətlərini müqayisə etməklə dünyanın siyasi mənzərəsində baş vermiş dəyişikliklərdə Osmanlıların təsirini şərh etməlidir.

**XII Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- mühazirə, seminar, praktik tapşırıqlar
- təqdimat və müzakirə

CamScanner ilə skan edilib

- debat
- müstəqil iş/araşdırma

**XII. Fənn üzrə təlim nəticələri:**

- Osmanlı tarixinin müxtəlif vaxtlarda baş vermiş hadisələrini və onun dünya tarixindəki yerini biblioqrafiq məlumatlar əsasında bilir;
- Osmanlı dövlətinin yaranmasının ümumdünya tarixində yerini və əhəmiyyətini qavrayır;
- Osmanlı imperiyasının dövlət quruluşunun siyasi mahiyyətini başa düşür və digər türk dövlətləri ilə əlaqələndirə bilir;
- Türklərin Balkanlardakı fəthlərinin strateji və tarixi mahiyyətini anlayır;
- Osmanlı dövlətinin Əmir Teymur tərəfindən işğalının və Fitrət dövrünün türk dünyası üçün nəticələrini şərh edir;
- Osmanlı imperiyasındakı ictimai-siyasi vəziyyəti və feodal münasibətlərinin başlıca cəhətlərini təhlil edir;
- Osmanlı imperatorluğunun XV-XIX əsrlərdəki sosial-iqtisadi vəziyyətinin əsas xüsusiyyətlərini sintez edir, Osmanlı dövlətinin beynəlxalq vəziyyəti, xarici siyasətini və imperiyanın süqutunun əsas cəhətlərini qiymətləndirir.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

______________________________________________

______________________________________________

**XIV. Kollokvium sualları**

**I kollokvium sualları**

1. Osmanlı dövlətinin tarixşünaslığı
2. Osmanlı dövlətinin mənbəşünaslığı
3. Osmanlı dövlətinin yaranması və güclənməsi
4. XIV əsrdə Osmanlı türklərinin Balkanlardakı işğalları
5. Osmanlı dövləti I Bəyazidin hakimiyyəti illərində
6. Osmanlı dövləti I Mehmetin, II Murad dövründə
7. Teymurun yürüşü. 1402-ci il Ankara savaşı
8. Konstantinapolun fəthi
9. Osmanlı imperiyasinin genişlənməsi. Sultan II Mehmet
10. Osmanlı dövlətində saray təşkilatı
11. Osmanlı dövlətində torpaq mülkiyyət formaları, vergi sistemi
12. Qaraqoyunlu - Osmanlı münasibətləri
13. Ağqoyunlu - Osmanlı münasibətləri
14. Osmanlı dövləti Sultan II Bəyazidin hakimiyyəti illərində
15. XVI əsrin əvvəllərində Osmanlı-Səfəvi münasibətləri. Çaldıran döyüşü

**II kollokvium sualları**

1. Misir və Suriyada Osmanlı işğallarının başlanması
2. Fateh Sultan Süleyman Qanuni (1520-1566)
3. Osmanlı Habsburq müharibələri
4. Sultan Süleyman Qanuninin Şərq səfəri
5. Osmanlı dövləti II Səlimin hakimiyyəti illərində
6. Osmanlı dövləti XVI əsrin sonunda. Sultan III Murad
7. Əyri qalasının fəthi, Xaçova müharibəsi, Zitvatorok müqaviləsi
8. Osmanlı Səfəvi muharibələri (1578-1639)
9. XVII əsrdə imperiyanın zəifləməyə başlaması
10. Osmanlı-Avstriya muharibəsi. Karlovits müqaviləsi
11. Osmanlı-Rusiya muharibələri (1677-1681, 1700-1711-ci illər)
12. Osmanlı-Rusiya müharibələri (1768-1774, 1787-1791-ci illər)
13. XVIII əsrin sonunda Osmanlı dövlətində ictimai-siyasi vəziyyət
14. Osmanlı tarixində geriləmə dövrü III Səlimin islahatları
15. 1806-1812-ci illər Rusiya-Osmanlı müharibəsi

**XV İmtahan sualları**

1. Osmanlı dövlətinin mənbəşünaslığı

CamScanner ilə skan edilib

2. Osmanlı dövlətinin tarixşünaslığı
3. Anadolu Səlcuq dövlətinin tənəzzülü
4. Osmanlı dövlətinin yaranması və güclənməsi
5. XIV əsrdə Osman türklərinin Balkanlardakı işğalları
6. Osmanlı dövləti I Bəyazidin hakimiyyəti illərində (1389-1402)
7. Osmanlı dövləti I Mehmetin (1413-1421) , II Murad dövründə (1421-1451)
8. Teymurun yürüşü. 1402-ci il Ankara savaşı
9. Konstantinapolun fəthi
10. Osmanlı imperiyasinin genişlənməsi. Sultan II Mehmet (1451-1481)
11. Osmanlı dövlətində saray təşkilatı
12. Osmanlı dövlətində torpaq mülkiyyət formaları, vergi sistemi
13. Osmanlı - Qaraqoyunlu münasibətləri
14. Osmanlı - Ağqoyunlu münasibətləri
15. Osmanlı dövləti Sultan II Bəyazidin (1481-1512) hakimiyyəti illərində
16. XVI əsrin əvvəllərində Osmanlı-Səfəvi münasibətləri. Çaldıran döyüşü (1514)
17. Misir və Suriyada Osmanlı işğallarının başlanması
18. Fateh Sultan Süleyman Qanuni (1520-1566)
19. Osmanlı Habsburq müharibələri
20. Sultan Süleyman Qanuninin Şərq səfəri
21. Osmanlı dövləti II Səlimin (1566–1574) hakimiyyəti illərində
22. Osmanlı dövləti XVI əsrin sonunda. Sultan III Murad (1574 – 1595)
23. Əyri qalasının fəthi, Xaçova müharibəsi, Zitvatorok müqaviləsi
24. Osmanlı Səfəvi muharibələri (1578-1639)
25. XVII əsrdə imperiyanın zəifləməyə başlaması
26. Osmanlı-Avstriya muharibəsi (1683-1699). Karlovitsa müqaviləsi (1699)
27. Osmanlı-Rusiya muharibələri (1677-1681, 1700-1711-ci illər)
28. Osmanlı-Rusiya müharibələri (1768-1774, 1787-1791-ci illər)
29. XVIII əsrin sonunda Osmanlı dövlətində ictimai-siyasi vəziyyət
30. Osmanlı tarixində geriləmə dövrü III Səlimin (1789-1807) islahatları
31. 1806-1812-ci illər Rusiya-Osmanlı müharibəsi
32. 1828-1829-cü illər Osmanlı-Rusiya muharibəsi. Ədirnə sülhü
33. 1831-1833-cü illərdə Türkiyə-Misir münaqişəsi. 1833-cü il rus-türk müharibəsi
34. Tənzimat hərəkatının I dövrü (1839-1953)
35. Krım muharibəsi (1853-1856)
36. Tənzimatın ikinci mərhələsi (1856-1876)
37. 1876-cı il Türkiyənin ilk Konstitusiyası
38. 1908-1909-cü illər Gənc türklər inqilabı
39. Gənc türklərə qarşı əksinqilabi çevriliş
40. 1912-1913-cü illər Balkan müharibələri. Buxarest sülh müqaviləsi
41. Rusiya imperiyasının Osmanlıya müharibə elan etməsi. Sarıqamış döyüşü
42. Osmanlı dövlətinin parçalamaq haqqında imperialist dövlətlərinin "Kiçik Asiya andlaşması".
43. Tələt, Ənvər, Camal rejiminin iflası. Mudros barışığı (1918)
44. 1920-ci il parlamentinin buraxılması. Sevr müqaviləsi (1920)
45. Osmanlı mədəniyyəti

**Osmanlı tarixi** fənninin sillabusu **6001018 - Tarix müəllimliyi** A,B ixtisasının təhsil proqramı, tədris planı və ARETN 02.07.2025-ci il tarixli əmri (3/29) ilə təsdiq edilmiş fənn proqramı əsasında tərtib eilmişdir.

Sillabus **"Tarix və onun tədrisi metodikası"** kafedrasında müzakirə edilərək təsdiq edilmişdir **(13 fevral 2026-cı il, protokol № 6).**

**Mühazirə müəllimi:** ______________ **dos.M.C.Bayramov**

**Seminar müəllimi:** ______________ **b/m.M.M.Sevdimova**

**Kafedra müdiri:** ______________ **dos.K.F.Mahmudov**

CamScanner ilə skan edilib